# İslam dininin

**əsaslarını və mühüm məsələlərini bəşəriyyətə öyrədən suallar və cavablar**

**Hazırlayan:**
**d. Ömər ibn Abdurrəhman ibn Muhəmməd Ömər**

**Tərcümə edən: Əbu Həmzə**

بسم الله الرحمن الرحيم

المملكة العربية السعودية
الرئاسة العامة للبحوث العلمية والإفتاء
مكتب المفتي العام

الرقم :
التاريخ : ٢٨/٣/١٤٣٧هـ
المشفوعات :

١٠٢

الحمد لله رب العالمين، والصلاة والسلام على نبينا محمد وعلى آله وصحابته أجمعين، أما بعد:

فإني قد اطلعتُ على كتاب (إرشاد الأنام إلى أصول مهمات دين الإسلام) الذي أعدّه الدكتور عمر بن عبد الرحمن العمر، وهو على صغر حجمه قد احتوى المسائل المهمة في أبواب التوحيد وعقيدة أهل السنة والجماعة، مع ذكر أحكام الوضوء، والصلاة، والزكاة، والصوم، والحج باختصار.

وقد ألفيتُه كتاباً مفيداً في مادته التي تمّتْ صياغتُها على شكل سؤال وجواب بعبارة سهلة ليسهل قراءتها وفهمها للقارئ.

ويحسن أن يترجم الكتاب إلى اللغات الأخرى ليستفيد منه كذلك غير الناطقين باللغة العربية.

وصلى الله وسلم على نبينا محمد. والسلام عليكم ورحمة الله وبركاته ،،،

المفتي العام للمملكة العربية السعودية
رئيس هيئة كبار العلماء الرئيس العام للبحوث العلمية والافتاء

عبدالعزيز بن عبدالله بن محمد ال الشيخ

# Səudiyyə Ərəbistanı Krallığının ali müftisinin müqəddiməsi

## Mərhəmətli və Rəhmli Allahın adı ilə

Həmd aləmlərin Rəbbi Allaha məxsusdur. Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinin hamısına salavat və salam olsun!

Mən doktor Ömər ibn Abdurrəhman əl-Ömərin yazdığı "İrşadul-Ənam ilə Usul və Muhimmatu Dinil-İslam" adlı kitabla tanış oldum. Bu kitab kiçik həcmdə olmağına rəğmən tövhidlə və əhlisünnə vəl-cəmaənin etiqadı ilə əlaqəli mühüm məsələləri ehtiva edir, üstəlik, dəstəmazın, namazın, zəkatın, orucun və həccin əhkamlarını müxtəsər şəkildə xatırladır.

Mən bu kitabın mövzuya aid faydalı bir kitab olduğunu hesab edirəm. Bu kitab sual-cavab şəklində, həm də asan ibarələrlə tərtib edilmişdir ki, oxucu onu rahat oxuyub başa düşə bilsin. Onu başqa dillərə də tərcümə etmək lazımdır ki, ərəb dilini bilməyənlər ondan istifadə edə bilsin.

Peyğəmbərimiz Muhəmmədə Allahın salavatı və salamı olsun! Sizə də Allahın salamı olsun, Onun rəhməti və bərəkəti yetişsin!

Səudiyyə Ərəbistanı Krallığının ali müftisi,
böyük alimlər heyətinin rəisi,
elmi araşdırmalar və fitvalar şurasının böyüyü
Abdulaziz ibn Abdullah ibn Muhəmməd Ali Şeyx

بسم الله الرحمن الرحيم

الحمد لله وبعد: اطلعت على رسالة الشيخ عمر بن عبد الرحمن العمر بعنوان:

إرشاد الأنام إلى أصول ومهمات دين الإسلام فوجدتها مفيدة وجيدة

سدد الله صاحبها فجزاه الله خيراً ونفع بها. وصلى الله وسلم على نبينا محمد وآله وصحبه

كتبه

صالح بن فوزان الفوزان

عضو هيئة كبار العلماء

في ١٠/٢/١٤٢٧هـ

# Möhtərəm şeyx əllamə d. Saleh ibn Fövzan əl-Fövzanın müqəddiməsi

## Mərhəmətli və Rəhmli Allahın adı ilə

Həmd Allaha məxsusdur!

Mən şeyx Ömər ibn Abdurrəhman əl-Ömərin yazdığı "İrşadul-Ənam ilə Usul və Muhimmatu Dinil-İslam" adlı kitaba nəzər saldım və onun müxtəsər olmaqla yanaşı faydalı və çox gözəl bir kitab olduğunu gördüm. Allah onu xeyirlə mükafatlandırsın və bu kitabı faydalı etsin.

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı olsun!

Yazdı:
Saleh ibn Fövzan əl-Fövzan
böyük alimlər heyətinin üzvü
h. 10.02.1437

# Müəllifin müqəddiməsi

## Mərhəmətli və Rəhmli Allahın adı ilə

Bizi tövhidə və sünnəyə yönəldən Allaha həmd olsun! Doğru yol göstəricisi və rəhmət peyğəmbəri – Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə salavat və salam olsun!

Həqiqətən də, tövhidi, səhih əqidəni və dinin əsaslarını öyrənmək ən mühüm və ən vacib məsələlərdən sayılır. Odur ki, əqidənin sağlam olması, üstəlik, ibadətin ixlasla Allah üçün, həm də Rəsulullahın ﷺ gətirdiyi şəriətə müvafiq olması üçün bu məsələləri öyrənmək gərəkdir. Elə buna görə də mən, Quran və Sünnə işığında, İslam alimlərinin və dəvət əhlinin mühüm və faydalı əsərlərində yazdıqlarına uyğun, bu müxtəsər kitabı yazıb ona belə bir ünvan qoymuşam: "İrşadul-Ənam ilə Usul və Muhimmatu Dinil-İslam". Mən bu kitabı fəsillərə bölmüşəm və hər fəsilə aid suallar və cavablar tərtib etmişəm ki, rahat və asan başa düşülsün.

Uca Allahdan istəyim budur ki, bu əməyimi ixlasla Onun üzü xatirinə və Onun rizasını qazanmaq naminə yerinə yetirilən, üstəlik, insanlara fayda verəcək işlərdən etsin.

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinin hamısına Allahın salavatı və salamı olsun!

# Üç əsas

1-ci sual: hər bir müsəlman kişiyə və müsəlman qadına bilməsi vacib olan üç əsas nədir?

Hər bir müsəlm kişiyə və müsəlman qadına bilməsi vacib olan üç əsas bunlardır:

1) İnsanın öz Rəbbini tanıması;

2) İnsanın öz dinini tanıması

3) İnsanın öz peyğəmbəri Muhəmmədi ﷺ tanıması.

***

2-ci sual: Rəbbin kimdir?

Rəbbim, məni və bütün aləmləri Öz neməti sayəsində yaradan, ruzi verən və idarə edən Allahdır. O mənim məbudumdur və mənim Ondan başqa heç bir məbudum yoxdur.

***

3-cü sual: Rəbbini nəyin sayəsində tanıyırsan?

Rəbbimi Onun dəlilləri və yaratdıqları sayəsində tanıyıram. Gecə və gündüz, günəş və ay Onun dəlillərindən yeddi göy, yeddi yer və onların arasında olanlar isə Allahın yartdığı məxluqlardandır.

***

4-cü sual: Dinin nədir?

Dinim İslamdır. İslam – Allahın tək İlah olduğunu qəbul edərək Ona təslim olmaq, itaət edərək Ona boyun əymək və bir də şirkdən və müşriklərdən uzaq olmaqdır.

***

5-ci sual: Dinin neçə mərtəbəsi var?

Dinin mərtəbələri üçdür. Bunlar:

1- İslam. 2- İman. 3- Ehsan

***

6-cı sual: Peyğəmbərin kimdir?

Peyğəmbərim Muhəmməd ibn Abdullah ibn Abdulmuttalib ibn Haşimdir. Haşim Qureyş qəbiləsindəndir, qureyşlilər də ərəblərdəndir. Ərəblər isə Allahın sevimli dostu İbrahimin oğlu İsmailin nəslindəndir. Həm bizim peyğəmbərə, həm də İbrahimə və İsmailə ən gözəl salavat və salam olsun!

***

# İslamın rüknləri və şəhadət kəlməsinin mənası

7-ci sual: İslamın rüknləri hansıdır?

İslamın beş rüknü var. Bunlar:

1- Allahdan başqa haqq məbudun olmadığına və Muhəmmədin ﷺ Onun rəsulu olduğuna şahidlik etmək;

2- Namaz qılmaq;

3- Zəkat vermək;

4- Ramazan ayını oruc tutmaq;

5- Yoluna gücü çatan hər kəsin Allahın müqəddəs Evini ziyarət etməsi.

***

8-ci sual: "Lə ilahə illəllah" şəhadətinin mənası nədir? Və buna dəlil nədir?

Lə ilahə illəllah – yəni Allahdan başqa ibadət olunmağa haqqı çatan məbud yoxdur.

Dəlil isə Uca Allahın bu kəlamıdır:

﴿ذَٰلِكَ بِأَنَّ ٱللَّهَ هُوَ ٱلْحَقُّ وَأَنَّ مَا يَدْعُونَ مِن دُونِهِۦ هُوَ ٱلْبَٰطِلُ وَأَنَّ ٱللَّهَ هُوَ ٱلْعَلِىُّ ٱلْكَبِيرُ﴾

"Bu belədir. Çünki Allah Haqdır. *Kafirlərin* Ondan başqa yalvardıqları isə batildir. Həqiqətən, Allah Ucadır, Böyükdür."[1]

***

[1] "əl-Həcc" surəsi, 62.

9-cu sual: "Lə ilahə illəllah" kəlməsinin neçə rüknü var? Və buna dəlil nədir?

"Lə ilahə illəllah" kəlməsinin iki rüknü var:

Birincisi inkar: "Lə ilah/yoxdur ilah"

İkincisi isbat: "illəllah/Allahdan başqa"

Dəlil isə Uca Allahın bu kəlamıdır:

﴿فَمَن يَكۡفُرۡ بِٱلطَّٰغُوتِ وَيُؤۡمِنۢ بِٱللَّهِ فَقَدِ ٱسۡتَمۡسَكَ بِٱلۡعُرۡوَةِ ٱلۡوُثۡقَىٰ﴾

"Hər kim tağutu inkar etsə və Allaha iman gətirərsə, ən möhkəm dəstəkdən yapışmış olar."[2]

"Hər kim tağutu inkar etsə" kəlməsi inkara, "Allaha iman gətirərsə" kəlməsi isə isbata dəlildir.

***

10-cu sual: "Lə ilahə illəllah" kəlməsinin şərtləri nədir?

"Lə ilahə illəllah" kəlməsinin səkkiz şərti var. Bunlar:

1. Elm, *yəni bu kəlmənin nəyi isbat və nəyi inkar etdiyini bilmək;*

2. Yəqinlik, *yəni şəkk etmədən bu kəlməni təsdiqləmək;*

3. İxlaslı olmaq, yəni *bu kəlməni tələffüz edən adamın sözü və əməli səmimi-qəlbdən Allahın rizasını qazanmaq üçün olmalıdır;*

4. Sadiq olmaq, *yəni bu kəlməni tələffüz edən adam imanında və əqidəsində düz olmalıdır;*

5. Sevmək, *yəni "lə ilahə illəllah" kəlməsini sevmək;*

6. Tabe olmaq, *yəni bu kəlmənin tələblərini yerinə yetirmək;*

7. Qəbul etmək, *yəni bu kəlmənin tələblərini inkar etməmək;*

8. Allahdan başqa ibadət edilən tanrıları inkar etmək.

Bu şərtlər iki beytdən ibarət şeir parçasında cəm edilimişdir:

---

[2] "əl-Bəqərə" surəsi, 256.

Bilmək, yəqinlik, ixlas və sadiqlik,
Üstəlik, sevmək, tabe olmaq və qəbul etmək.
Səkkizinci də əlavə edildi, bu da:
Allahdan başqa ibadət olunanları inkar etmək.

***

11-ci sual: "Lə ilahə illəllah" kəlməsinin tələbi nədir?

"Lə ilahə illəllah" kəlməsinin tələbi iki hissədən ibarədir:

1-ci tələb isbatdır, yəni Allahın tək İlah olduğuna iman gətirmək və ixlasla Ona ibadət etmək.

2-ci tələb də, inkardır, yəni Allahdan başqa ibadət edilən tanrıları inkar etmək, üstəlik, şirkdən və müşriklərdən, həmçinin, dini korlayan amillərdən uzaq olmaqdır.

***

12-ci sual: "Muhəmmədən Rəsulullah" şəhadətinin mənası nədir?

"Muhəmmədən Rəsulullah" – yəni, Muhəmmədin ﷺ Allahın qulu və bütün bəşəriyyətə göndərdiyi rəsulu, üstəlik, peyğəmbərlərin və elçilərin sonuncusu olduğunu həm qəlbən, həm də zahirən etiraf etməkdir.

***

13-cü sual: "Muhəmmədən Rəsulullah" kəlməsinin tələbi nədir?

"Muhəmmədən Rəsulullah" kəlməsinin təbəbi budur ki, Peyğəmbərin ﷺ əmrlərinə itaət etməli, söylədiklərini təsdiqləməli, qadağan etdiyi və çəkindirdiyi əməllərdən uzaq durmalı, üstəlik, Allaha yalnız onun öyrətdiyi tərzdə ibadət etməliyik.

***

## İmanın rüknləri və onun faydaları

14-cü sual: İmanın rüknləri hansılardır?

İmanın altı rüknü var. Bunlar:

1- Allaha iman gətirmək;

2- Onun mələklərinə iman gətirmək;

3- Kitablarına iman gətirmək;

4- Peyğəmbərlərinə iman gətirmək;

5- Axirət gününə iman gətirmək;

6- Qədərin xeyrinin və şərinin Allahdan olmasına iman gətirmək;

***

15-ci sual: Allaha iman gətirmək nə deməkdir?

Allah iman gətirmək, Allahın varlığını qətiyyətlə təsdiq etmək, üstəlik, Onun rububiyyətini (yaradan, ruzi verən və idarə edən Rəbb olduğunu) və uluhiyyətini (ibadətə haqqı çatan tək ilah olduğunu), habelə, Onun adlarını və sifətlərini təsdiqləməkdir.

***

16-cı sual: Allaha iman gətirməyin faydası nədir?

Allaha iman gətirməyin faydası çoxdur. O faydalardan bəzisi bunlardır:

1. Uca Allahın tək İlah olduğunu qəbul etmək. Yəni, təkcə Ona ibadət etmək və heç kəsi Ona şərik qoşmamaq.

2. Uca Allahın gözəl adları və uca sifətləri sayəsində, kamil şəkildə Onu sevmək, Onu uca tutmaq və Ondan qorxmaq.

3. Allahın əmrlərini yerinə yetirmək və qadağalarından çəkinməklə Ona ibadət etmək.

***

17-ci sual: Mələklərə iman gətirmək nə deməkdir?

Mələklərə iman gətirmək, onların varlığını qətiyyətlə təsdiq etmək, üstəlik, onların, Allahın əmrlərini yerinə yetirən və Ona asi olmayan möhtərəm qullar olduğuna etiqad etməkdir.

Biz, Allahın, o mələklərdən adlarını bildirdiyi Cəbrail, Mikail, və İsrafil kimi mələklərə, habelə, adlarını bildirmədiyi mələklərin hamısına iman gətiririk.

***

18-ci sual: Mələklərə iman gətirməyin faydası nədir?

Mələklərə iman gətirməyin faydası çoxdur. O faydalardan bəzisi bunlardır:

1. Uca Allahın əzəmətli, güclü və hökmran olduğunu bilmək. Belə ki, məxluqatın əzəmətli olması Xaliqin əzəmətli olmasına dəlildir.

2. Uca Allahı sevmək və Ona, Adəm oğullarının qeydinə qaldığına görə şükür etmək. Belə ki, Allah o mələklərin bir qisminə onları qorumağı həvalə etmişdir.

3. Yaxşı işlər görməyə rəğbətləndirmək və pis əməllərdən çəkindirmək. Belə ki, Allah o mələklərin bir qisminə Adəm oğullarının yaxşı və pis əməllərini yazmağı həvalə etmişdir.

***

19-cu sual: Kitablara iman gətirmək nə deməkdir?

Kitablara iman gətirmək, Allahın Öz elçilərinə nazil etdiyi kitabları qətiyyətlə təsdiq etmək, üstəlik, onların Allahın kəlamı, habelə, haqq və bir nur olduğunu etiqad etməkdir.

Biz, Allahın nazil etdiyi o kitablardan adlarını bildirdiyi Qurana, Tövrata, İncilə və Zəbura, habelə, adlarını bildirmədiyi digər kitablara iman gətiririk.

***

20-ci sual: Kitablara iman gətirməyin faydası nədir?

Kitablara iman gətirməyin faydası çoxdur. O faydalardan bəzisi bunlardır:

1. Uca Allahın Öz qullarının qeydinə qaldığını bilmək. Belə ki, Allah hər bir qövmü doğru yola yönəltmək üçün onlara kitab nazil etmişdir.

2. Uca Allahın qanunlarında olan hikməti bilmək. Belə ki, Allah hər bir qövmə onların yaşayış tərzinə münasib olan qanunlar qoymuşdur. Bu xüsusda Uca Allah buyuyur:

﴿لِكُلٍّ جَعَلْنَا مِنكُمْ شِرْعَةً وَمِنْهَاجًا﴾

"Biz hər biriniz üçün bir şəriət və bir yol təyin etdik."[3]

3. Allahın nemətinə – bəşəriyyətə *doğru-düzgün* ibadət etməyi öyrətdiyinə görə şükür etmək.

4. Nazil edilmiş kitab sayəsində və göndərilmiş peyğəmbərə tabe olmaqla, mötəbər dəlillərə əsaslanaraq Allaha ibadət etmək.

***

21-ci sual: Peyğəmbərlərə iman gətirmək nə deməkdir?

Peyğəmbərlərə iman gətirmək, onların hamısının Allah tərəfindən göndərildiyini və gətirdikləri xəbərlərin doğru olduğunu qətiyyətlə təsdiq etməkdir.

Biz, Allahın, adlarını bildirdiyi Nuh, İbrahim, Musa, İsa və Muhəmməd – aleyhimussalətu vəssəlam – kimi peyğəmbərlərə, habelə, adlarını bildirmədiyi peyğəmbərlərə iman gətiririk.

***

---

[3] "əl-Maidə" surəsi, 48.

22-ci sual: Peyğəmbərlərə iman gətirməyin faydası nədir?

Peyğəmbərlərə iman gətirməyin faydası çoxdur. O faydalardan bəzisi bunlardır:

1. Uca Allahın mərhəmətli olduğunu və Öz qullarının qeydinə qaldığını bilmək. Belə ki, Allah Öz qullarını düz yola və doğru dinə yönəltmək üçün onların yanına peyğəmbərlər göndərmişdir;

2. Nazil edilmiş kitab sayəsində və göndərilmiş peyğəmbərə tabe olmaqla, mötəbər dəlillərə əsaslanaraq Allaha ibadət etmək;

3. Peyğəmbərləri – aleyhimussəlatu vəssəlamı – sevmək, onları uca tutmaq və onları layiqli şəkildə tərif etmək;

4. Bu böyük nemətə görə Allaha şükür etmək.

***

23-cü sual: Axirət gününə iman gətirmək nə deməkdir?

Axirət gününə iman gətirmək, insanların haqq-hesaba çəkilmək və etdikləri əməllərin əvəzini almaq üçün diriləcəkləri Qiyamət gününü qətiyyətlə təsdiq etməkdir.

***

24-cü sual: Axirət gününə iman gətirməyin faydası nədir?

Axirət gününə iman gətirməyin faydası çoxdur. O faydalardan bəzisi bunlardır:

1. Axirətdəki savaba nail olmaq üçün yaxşı işlər görməyə can atmaq və buna həris olmaq.

2. Axirətdəki cəzadan qorxaraq günah işlərdən çəkinmək və buna nifrət etmək.

3. Mömin adamın fani dünya nemətlərinə könül bağlamayıb tükənməz axirət nemətlərini qazanacağına ümid etməsi.

***

25-ci sual: Qədərin xeyrinə və şərinə iman gətirmək nə deməkdir?

Qədərin xeyrinə və şərinə iman gətirmək, hər bir xeyirin və şərin Allahın yazdığı qədər ilə baş verdiyini, Allahın istədiyini etdiyini qətiyyətlə təsdiq etməkdir. Belə ki, Allah istədiyi olur, istəmədiyi isə olmur.

***

26-cı sual: Qədərin xeyrinə və şərinə iman gətirməyin faydası nədir?

Qədərə iman gətirməyin faydası çoxdur. O faydalardan bəzisi bunlardır:

1. Səmimi-qəlbdən Allaha təvəkkül etmək, hər bir işi gördükdə ona etimad etmək. Çünki səbəbləri yaradan, məhz Odur və hər şey pak və müqəddəs Allahın qədəri ilə olur;

2. Allahın yazdığı qədərdən insanın başına gələnlərə görə narahat olmamaq və bundan razı qalmaq. Adam sevdiyini itirdiyinə və ya başına xoşlamadığı bir işin gəldiyinə görə qəzəblənməməlidir.

3. Sıxıntı anlarında dəyişməmək, həyatın hər bir çətinliyini sabit qəlblə və tam yəqinliklə qəbul etmək.

4. İstədiyinə nail olduqda özündən razı qalmamaq. Çünki bu, Uca Allahın yazdığı qədər, Onun istəyi və lütfü ilə baş verir.

***

# Ehsan və onun faydaları

27-ci sual: Ehsan nə deməkdir?

Ehsan odur ki, Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən. Sən Onu görməsən də, bil ki, O səni görür

***

28-ci sual: Ehsan neçə mərtəbədən ibarətdir?

Ehsan iki mərtəbədən ibarətdir:

Birinci mərtəbə, qəlb ilə müşahidə etməkdir, yəni qulun öz Rəbbinə, sanki Onu görürmüş kimi ibadət etməsidir. Bu da, ehsanın ən üstün mərtəbəsidir.

İkincisi isə nəzarət olunma mərtəbəsidir, yəni adam bilməlidir ki, harada olursa olsun, nə əməl edirsə etsin, Allah onu görür.

***

29-cu sual: Ehsanın faydası nədir?

Ehsanın faydası çoxdur. O faydalardan bəzisi bunlardır:

1. Gizlində və aşkarda Uca Allahdan qorxmaq;
2. Səmimi-qəlbdən Allaha ibadət etmək, üstəlik, bu ibadəti gözəl tərzdə və kamil şəkildə yerinə yetirməyə səy göstərmək;
3. Allahın məxsusi şəkildə muhsinlərə yaxın olması;
4. Cənnəti qazanmaq və Qiyamət günü Allahı görməyə müvəffəq olmaq.

***

## Tövhid və onun üstünlükləri

30-cu sual: Tövhid neçə qismə bölünür?

Tövhid üç qismə bölünür, bunlar:

1. Rububiyyə tövhidi;
2. Uluhiyyə tövhidi;
3. Adlar və sifətlər tövhidi;

***

31-ci sual: Rububiyyə tövhidi nə deməkdir?

Rububiyyə tövhidi: Allahın gördüyü işlərdə – yaratmaq, ruzi vermək, mülk sahibi olmaq, idarə etmək, öldürüb-diriltmək və başqa bu kimi pak və müqəddəs Allaha aid işlərdə Onun tək İlah olduğunu qəbul etməkdir.

***

32-ci sual: Müsəlman olmaq üçün təkcə rububiyyə tövhidini qəbul etmək kifayətdirmi?

Müsəlman olmaq üçün təkcə rububiyyə tövhidini qəbul etmək kifayət deyil. Belə ki, Peyğəmbərin ﷺ zamanında yaşayan müşriklər də rubuniyyə tövhidini qəbul edirdilər, lakin bu onlara fayda vermədi. Buna dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَهُمْ لَيَقُولُنَّ ٱللَّهُ فَأَنَّىٰ يُؤْفَكُونَ ﴾

“Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: “Allah!”– deyərlər. *Gör* necə də *haqdan* döndərilirlər!”[4]

***

[4] “əz-Zuxruf” surəsi, 87.

33-cü sual: Uluhiyyə tövhidi nə deməkdir?

İnsanların etdiyi əməlləri Tək Allaha yönəltməsi.

Yəni ibadətlərin hamısını Tək Allaha yönəltmək. Bu da "lə ilahə illəllah"ın mənasıdır.

***

34-cü sual: Uluhiyyə tövhidinin əhəmiyyəti nədir?

Uluhiyyə tövhidi: insanların və cinlərin yaradılışının qayəsidir;

Uluhiyyə tövhidi: peyğəmbərlərin və rəsulların – aleyhimus-salatu vəssəlam – dəvətinin məqsədidir;

Uluhiyyə tövhidi: Allahın Öz quları üzərində olan haqqıdır;

Uluhiyyə tövhidi: əməllərin doğru-düzgün olmasının əsasıdır.

***

35-ci sual: Adlar və sifətlər tövhidi nə deməkdir?

Adlar və sifətlər tövhidi: Allahın kitabında və Onun rəsulunun ﷺ sünnəsində varid olmuş Allahın adlarının və sifətlərinin yalnız Ona məxsus olduğunu qəbul etməkdir. (Yəni bu adları və sifətləri) başqa mənaya yozmadan, onları inkar etmədən, onların necəliyini vəsf etmədən və onları nəyəsə bənzətmədən, onlardan Allahın təsdiq etdiyini təsdiqləmək, inkar etdiyini də, inkar etməkdir.

***

36-cı sual: Adlar və sifətlər tövhidində Əhli-Sünnə vəl-Cəmaənin tutduğu yol nədir?

Adlar və sifətlər tövhidində Əhli-Sünnə vəl-Cəmaənin tutduğu yol: Allahın Özünə aid etdiyi adları və sifətləri, heç kəsə və heç nəyə bənzətmədən təsdiq etmək, üstəlik, Onun Özünə aid etmədiyi

adları və sifətləri inkar etmək və Allahı həmin ad və sifətlərdən təmizə çıxartmaq. Buna dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ لَيۡسَ كَمِثۡلِهِۦ شَيۡءٞۖ وَهُوَ ٱلسَّمِيعُ ٱلۡبَصِيرُ ﴾

"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir."[5] Ayədəki: "Onun heç bir bənzəri yoxdur" sözü, oxşatma və bənzətməyə cavab, "O, Eşidəndir, Görəndir" sözü isə, inkar etməyə cavabdır.

***

37-ci sual: Adlar və sifətlər tövhidinin əhəmiyyəti nədir?

1. Uca Allaha olan imanı artırmaq;

2. Allahın adlarını və sifətlərini öyrənmək, Uca Allahı tanımağın yoludur.

3. Allahı sevmək, Ondan qorxmaq və Ona ümid bəsləmək kimi qəlb əməllərini gücləndirmək;

4. Cəhmilər, motəzililər və əşarilərdə baş verən, Allahın adlarını və sifətlərini məxluqa bənzətməkdən və ya onları inkar etməkdən qorunmaq.

***

38-ci sual: Tövhidin üstünlüyü nədir?

Tövhidin üstünlüyü çoxdur. O üstünlüklərdən bəzisi bunlardır:

1. Günahları və xətaları silib aparır;

2. Dünyada və axirətdə tam əminlik qazanmaq.

3. Dünyada xoş gün-güzəran görmək, axirətdə də böyük savab qazanmaq;

4. Cənnətə daxil olmaq;

5. Cəhənnəm odundan qurtulmaq.

***

[5] "əş-Şura" surəsi, 11.

# Riddə

39-cu sual: Riddə nə deməkdir? Buna dəlil nədir?

Riddə: İslamı qəbul etdikdən sonra kafir olmaqdır. Dəlil də Uca Allahın bu kəlamıdır:

﴿ وَمَن يَرْتَدِدْ مِنكُمْ عَن دِينِهِۦ فَيَمُتْ وَهُوَ كَافِرٌ فَأُوْلَٰٓئِكَ حَبِطَتْ أَعْمَٰلُهُمْ فِى ٱلدُّنْيَا وَٱلْءَاخِرَةِ ۖ وَأُوْلَٰٓئِكَ أَصْحَٰبُ ٱلنَّارِ ۖ هُمْ فِيهَا خَٰلِدُونَ ﴾

“Sizlərdən hər kim dinindən dönüb kafir olaraq ölərsə, onların əməlləri dünyada və axirətdə puça çıxar. Onlar Od sakinləridirlər və onlar orada əbədi qalacaqlar.”[6]

***

40-cı sual: Riddə (dindən çıxmaq) neçə qismə bölünür?

Riddə beş qismə bölünür, bunlar:

1. Sözə görə dindən çıxmaq;
2. Əmələ görə dindən çıxmaq;
3. Etiqada görə dindən çıxmaq;
4. Şəkk etmək səbəbilə dindən çıxmaq;
5. Tərk etmək səbəbilə dindən çıxmaq;

***

41-ci sual: Sözə görə dindən çıxmağa dair nə misal çəkmək olar?

Sözə görə dindən çıxmağa dair bir çox misallar çəkmək olar, məsələn:

1. Uca Allahı və ya Onun rəsulunu ﷺ söymək;
2. Qeybdə olanları bilməyi iddia etmək;

---

[6] “əl-Bəqərə” surəsi, 217.

3. Peyğəmbərlik iddia etmək;

4. Allahdan başqa heç kəsin qadir olmadığı işlər xüsusunda Allahdan qeyrisinə dua etmək.

***

42-ci sual: Əmələ görə dindən çıxmağa dair nə misal çəkmək olar?

Əmələ görə dindən çıxmağa dair bir çox misallar çəkmək olar, məsələn:

1. Bütə, yaxud daşa və ya qəbirə səcdə etmək;

2. Allahdan qeyrisinə qurban kəsmək;

3. Quranı murdar yerlərə atmaq;

4. Sehr öyrənmək və onu başqalarına öyrətmək .

***

43-cü sual: Etiqada görə dindən çıxmağa dair nə misal çəkmək olar?

Etiqada görə dindən çıxmağa dair bir çox misallar çəkmək olar, məsələn:

1. Uca Allahın şəriki olduğuna etiqad etmək;

2. Ölümdən sonra dirilməməyə, yaxud Cənnət və Cəhənnəmin mövcud olmadığına etiqad etmək;

3. Allahın haram buyurduğunu halal saymaq, məsələn, zina etməyin, yaxud şərab içməyin və ya Allahın nazil etmədiyi ilə hökm verməyin halal olduğunu etiqad etmək;

4. Dinin rükünlərini və vaciblərini inkar etmək, məsələn, namaz qılmağı və ya zəkat verməyi, yaxud ramazan ayını oruc tutmağı, yaxud da həcc ziyarətini yerinə yetirməyi inkar etmək.

***

44-cü sual: Şəkk səbəbilə dindən çıxmağa dair nə misal çəkmək olar?

Şəkk səbəbilə dindən çıxmağa dair bir çox misallar çəkmək olar, məsələn:

1. Ölümdən sonra dirilməyə, yaxud Cənnət və Cəhənnəmin mövcud olduğuna şəkk etmək;

2. İslam dininə və ya onun bu zəmanəyə uyğun olduğuna şəkk etmək;

3. Muhəmmədin ﷺ peyğəmbərliyinə və ya onun doğru danışdığına şəkk etmək;

4. Qurani Kərimə və onun Allahın kəlamı olduğuna şəkk etmək.

***

45-ci sual: Tərk etmək səbəbilə dindən çıxmağa dair nə misal çəkmək olar?

Məsələn, qəsdən namazı tərk etmək. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Şübhəsiz ki, insanla, şirk və küfr arasında namazı tərk etmək durur."[7]

***

[7] Səhih Muslim, 82.

## Şirk

46-cı sual: Şirk neçə qismə bölünür?

Uca Allaha şərik qoşmaq iki növdür:

1. Böyük şirk;
2. Kiçik şirk.

***

47-ci sual: Böyük şirk nə deməkdir?

Böyük şirk: ibadətlərdən hər hansı birini Allahdan başqasına yönəltmək.

***

48-ci sual: Böyük şirkə dair nə misal çəkmək olar?

Böyük şirkə dair bir çox misallar çəkmək olar, məsələn:

Allahdan qeyrisinə dua etmək, yaxud Allahdan başqasına – qəbirlərə, cinlərə, şeytanlara və s. yaxınlaşmaq məqsədilə qurban kəsmək və ya nəzir vermək, yaxud Allahdan başqa heç kəsin qadir olmadığı işlərdə – hər hansı bir istəyi həyata keçirmək və ya sıxıntını aradan qaldırmaq xüsusunda Allahdan qeyrisinə ümid etmək.

***

49-cu sual: Böyük şirkin nə kimi pis nəticələri və fəsadları var?

Böyük şirk günahların ən böyüyüdür və onun fəsadları çoxdur. O fəsadlardan bəzisi bunlardır:

1. Böyük şirk adamı İslamdan çıxarır;
2. Böyük şirk əməllərin hamısını puç edir;
3. Böyük şirk, sahibinin Cənnətə daxil olmasına mane olur və əgər o, müşrik olduğu halda ölərsə, əbədi olaraq Cəhənnəmdə qalar.

***

50-ci sual: Böyük şirkə batmağın səbəbləri nədir?

Böyük şirkə batmağın bir çox səbəbləri var. O səbəblərdən ən mühümləri bunlardır:

1. Əməlisaleh insanlar xüsusunda ifrata varmaq;
2. Tövhidi və "lə ilahə illəllah" kəlməsinin mənasını bilməmək;
3. Nəfsin istəyinə uymaq;
4. Kor-koranə təqlid etmək.

***

51-ci sual: Kiçik şirk nədir?

Böyük şirkə aparıb çıxaran və bu şirkə batmağa vəsilə olan, üstəlik, Quran və sünnədə şirk adlandırılan, şəriətin qadağan etdiyi hər bir günah kiçik şirk sayılır.

***

52-ci sual: Kiçik şirk neçə qismə bölünür?

Kiçik şirk iki qismə bölünür:

Birinci qismi zahirdə olan şirkdir ki, bu da iki növdür:

1. Sözdə olan şirk: məsələn, Allahdan başqasına and içmək, yaxud: "Allah və sən istəsən"– demək.

2. Əməldə olan şirk: məsələn, bəlanı aradan qaldırmaq və ya dəf etmək məqsədilə (biləyə və s.) həlqə və ya sap taxmaq, habelə, gözdəymədən və s. qorunmaq üçün həmail[8] asmaq.

İkinci qismi isə gizlin şirkdir ki, bu da, ibadətdə riyakarlıq etməkdir.

***

---

[8] Xeyir əldə etmək və ya bəladan qorunmaq üçün boyundan asılan dua, sümük, muncuq və sairə.

53-cü sual: Böyük şirklə kiçik şirk arasında nə fərq var?

Böyük şirklə kiçik şirk arasında olan fərqlər bunlardır:

1. Böyük şirk adamı İslamdan çıxarır, kiçik şirk isə adamı İslamdan çıxarmır, lakin onun tovhidində naqislik yaradır.

2. Böyük şirk bütün əməlləri puç edir, kiçik şirk isə bütün əməlləri puç etmir. Belə ki, riya sadəcə onunla əlaqəli olan əməli puç edir.

3. Böyük şirkə yol vermiş adam Cəhənnəmdə əbədi qalar, kiçik şirkə yol vermiş adam isə, Cəhənnəmə düşsə də, orada əbədi qalmaz.

***

# Münafiqlik[9]

54-cü sual: Münafiqlik neçə növdür?

Münafiqlik iki növdür:

Birincisi, etiqada aid olan münafiqlikdir ki, buna "böyük münafiqlik" deyilir.

İkincisi, isə əmələ aid olan münafiqlikdir ki, buna da "kiçik münafiqlik" deyilir.

***

55-ci sual: Etiqada aid olan münafiqlik nə deməkdir?

Bu, adamın zahirdə müsəlman olduğunu göstərib daxildəki küfrü gizlətməsidir.

***

56-cı sual: Etiqada aid olan münafiqlik neçə növdür?

Etiqada aid olan münafiqlik altı növdür:

1. Rəsulullahı ﷺ yalançı saymaq;
2. Rəsulullahın ﷺ gətirdiyi risalətin bir qismini yalan saymaq;
3. Rəsulullaha ﷺ nifrət etmək;
4. Rəsulullahın ﷺ gətirdiyi risalətin bir qisminə nifrət etmək;
5. Rəsulullahın ﷺ dininin təhqir edilməsindən həzz almaq;
6. Rəsulullahın ﷺ gətirdiyi dinin qalib gəlməsini istəməmək.

***

[9] İkiüzlülük: üzdə bir cür, daxildə isə başqa cür olmaq.

57-ci sual: Əmələ aid olan münafiqlik nə deməkdir?

Bu, qəlbdə iman olduğu halda, münafiqlərin etdiyi əməli etməkdir. Məsələn, yalan danışmaq, xəyanət etmək, camaat namazına getməyə tənbəllik etmək.

***

58-ci sual: Etiqada aid olan münafiqliklə əmələ aid olan münafiqlik arasında nə fərq var?

Etiqada aid olan münafiqliklə əmələ aid olan münafiqlik arasında olan fərqlər bunlardır:

1. Etiqada aid olan münafiqlik adamı İslamdan çıxarır, əmələ aid olan münafiqlik isə adamı İslamdan çıxarmır;

2. Etiqada aid olan münafiqlik, adamın daxili və zahiri etiqadının bir-birinə zidd olmasıdır. Əmələ aid olan münafiqlik isə, adamın etiqad etmədən gizlin və aşkar əməlinin bir-birinə zidd olmasıdır.

3. Mömin adamın etiqadında münafiqlik ola bilməz, lakin o, əməldə münafiqliyə yol verə bilər.

***

## Şəriətin buyurduğu ibadətlər və qadağan etdiyi bidətlər

59-cu sual: Allah bizi nə üçün yaradıb? Və buna dəlil nədir?

Allah bizi, yalnız Ona ibadət etmək və heç nəyi Ona şərik qoşmamaq üçün yaradıb. Buna dəlil, Uca Allahın bu kəlamıdır:

﴿وَمَا خَلَقۡتُ ٱلۡجِنَّ وَٱلۡإِنسَ إِلَّا لِيَعۡبُدُونِ﴾

"Mən cinləri və insanları ancaq Mənə ibadət etsinlər deyə yaratdım."[10]

***

60-cı sual: İbadət nə deməkdir?

İbadət: Allahın sevdiyi və razı qaldığı hər bir zahiri və batini söz və əməllər toplumudur.

***

61-ci sual: İbadətin qəbul olunması üçün şərtlər hansılardır?

İbadət yalnız iki şərtlə qəbul olunur:

1. İxlasla (səmimi-qəlbdən) Allah üçün olmalı;
2. Rəsulullahın ﷺ sünnəsinə uyğun olmalı.

***

62-ci sual: İxlasla Allaha ibadət etmək nə deməkdir?

İxlas: ibadəti şirkin, riyanın və şöhrətpərəstliyin hər növündən təmizləməkdir.

***

---

[10] "əz-Zariyat" surəsi, 56.

63-cü sual: Allaha ixlasla ibadət etməyin vacib olmasına dəlil nədir?

İxlasla ibadət etməyin vacib olmasına dəlil, Uca Allahın bu kəlamıdır:

﴿وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعۡبُدُواْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ﴾

“Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək əmr olunmuşdu.”[11]

***

64-cü sual: Rəsulullahın ﷺ sünnəsinə tabe olmaq nə deməkdir?

Allaha ibadət xüsusunda Rəsulullaha ﷺ tabe olmaq, yəni ibadəti sünnəyə müvafiq şəkildə, bidətdən uzaq durmaqla yerinə yetirmək.

***

65-ci sual: Rəsulullahın ﷺ sünnəsinə tabe olmağa dəlil nədir?

Rəsulullahın ﷺ sünnəsinə tabe olmağa dəlil, Uca Allahın bu kəlamıdır:

﴿قُلۡ إِن كُنتُمۡ تُحِبُّونَ ٱللَّهَ فَٱتَّبِعُونِي يُحۡبِبۡكُمُ ٱللَّهُ وَيَغۡفِرۡ لَكُمۡ ذُنُوبَكُمۡۚ وَٱللَّهُ غَفُورٞ رَّحِيمٞ﴾

“De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da, sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayandır, rəhmlidir.”[12]

***

11 “əl-Beyyinə” surəsi, 5.

12 “Ali-İmran” surəsi, 31.

66-cı sual: Dində bidət nə deməkdir?

Dində bidət: İslam şəriətinə uyğun olmayan qaydada Allaha ibadət etmək deməkdir.

İnsanlar tərəfindən uydurulmuş, Quran və Sünnədə əsli olmayan, üstəlik, dörd raşidi xəlifənin etmədiyi hər bir ibadət bidət adlanır.

***

67-ci sual: Dində olan bidətin hökmü nədir? Və buna dəlil nədir?

Dinə aid edilən hər bir bidət haram və zəlalətdir. Buna dəlil, Peyğəmbərin ﷺ bu sözüdür: "Kim bizim bu dinimizə aid olmayan (əməli və ya sözü) ona aid edərsə, o, rədd edilər."[13] O, həmçinin, demişdir: "Hər bir bidət zəlalətdir."[14]

***

68-ci sual: Dində olan bidət neçə növdür?

Dində olan bidət iki növdür:

Birinci növ; etiqad edərək deyilən bidətlərdir. Buna cəhmilərin, motəzilələrin, xəvariclərin, rafizilərin və başqa azğın firqələrin dediklərini və onların etiqadlarını misal çəkmək olar.

İkinci növ; ibadətlərdə edilən bidətdir. Buna Allaha, Onun buyurmadığı qaydada ibadət etməyi misal çəkmək olar. Bu da bir neçə qismə bölünür:

Birinci qism; ibadətin əslinə aid olan bidətlərdir. Məsələn, qəbiri təvaf etmək, yaxud mövlud keçirmək və başqa bu kimi bidətlər.

---

[13] "Səhih əl-Buxari", 2697; "Səhih Muslim", 1718.

[14] "Səhih Muslim", 867.

İkinci qism; dinə aid olan bir ibadətin yerinə yetirilməsində yol verilən bidətdir. Məsələn, camaat şəklində (xorla) zikr etmək.

Üçuncü qism; dinə aid olan bir ibadətin, şəriətin təyin etmədiyi zaman əsnasında yerinə yetirilməsini xüsusiləşdirmək. Məsələn, şaban ayının ortasını (yəni on beşi gününü), xüsusiləşdirərək gündüzünü oruc tutub, gecəsini isə ibadətlə məşğul olmaq.

***

69-cu sual: Dinə aid olan bidətə dair nə misal çəkmək olar?

Dinə aid olan bidətlər çoxdur, lakin ən məşhurları bunlardır:

1. Peyğəmbərin ﷺ mövludunu (doğum gününü) keçirmək.
2. İsra və merac gecələrini bayram etmək.
3. Qəbirlər üzərində tikililər ucaltmaq və onları ibadətgah etmək.

***

70-ci sual: Bidətə düşməyin səbəbləri nədir?

Bidətə düşməyin bir çox səbəbləri var, o səbəblərdən bəziləri bunlardır:

1. Dinin əhkamlarından bixəbər olmaq;
2. Nəfsin istəklərinə uymaq;
3. Kor-koranə təqlid etmək;
4. Kafirlərə oxşamaq.

***

## Dəstəmaz və qüsl

71-ci sual: Dəstəmaz nə deməkdir?

Dəstəmaz, şəriətin müəyyən etdiyi əzaları yumaq və məsh etmək deməkdir.

***

72-ci sual: Dəstəmazın neçə şərti var?

Dəstəmazın on şərti var, bunlar:

1. Müsəlman olmaq;
2. Ruhi xəstə olmamaq;
3. Həddi-büluğa çatmaq;
4. (Dəstəmaz almağa) niyyət etmək;
5. Hökmünü qüvvədə saxlamaq, yəni əzaları tam yuyub qurtaranadək dəstəmazı bitirməyi niyyət etməmək.
6. Dəstəmazı vacib edən amildən yaxa qurtarmaq;
7. Kiçik və ya böyük ehtiyacı rəf etdikdən sonra su ilə yuyunmaq, yaxud daş ilə təmizlənmək;
8. Təmiz və mübah su tapmaq;
9. Suyun dəriyə çatmasına mane olan hər bir amili (boya, lak və s.) aradan qaldırmaq;
10. Dəstəmazını saxlaya bilməyən kimsə üçün namaz vaxtının girməsi.

***

73-cü sual: Dəstəmazın neçə vacibi var?

Dəstəmazın vacibi altıdır, bunlar:

1. Üzü yumaq, buna ağızı və burunu yaxalamaq da aiddir;
2. Əlləri dirsəklərə qədər (dirsəklər də daxil olmaqla) yumaq;
3. Başa bütünlüklə məsh çəkmək, bura qulaqlar da aiddir;
4. Ayaqları topuqlara qədər (topuqlar da daxil olmaqla) yumaq;

5. Əzaları yuxarıdakı ardıcıllıqla yumaq;

6. Əzaları yuyarkən aralarında fasilə verməmək;

***

74-cü sual: Dəstəmazı pozan amillər nələrdir?

Dəstəmazı pozan amillər dörddür, bunlar:

1. Ön və arxa ifrazat çıxışlarından xaric olan sidik, məzi, nəcis, yel;

2. Ağılı itirmək, yaxud bayılmaq, yaxud dərin yuxuya getmək. Mügüləmək isə dəstəmazı pozmur;

3. Dəvə əti yemək;

4. Övrət yerinə bilavasitə toxunmaq.

***

75-ci sual: Dəstəmaz pozulduqdan sonra dəstəmaz almağın vacib olmasına dəlil nədir?

Dəstəmaz almağın vacib olmasına dair dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا قُمۡتُمۡ إِلَى ٱلصَّلَوٰةِ فَٱغۡسِلُواْ وُجُوهَكُمۡ وَأَيۡدِيَكُمۡ إِلَى ٱلۡمَرَافِقِ وَٱمۡسَحُواْ بِرُءُوسِكُمۡ وَأَرۡجُلَكُمۡ إِلَى ٱلۡكَعۡبَيۡنِ ﴾

"Ey iman gətirənlər! Namaza qalxdığınız zaman üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı *yuyun*."[15]

***

76-cı sual: Qüsl nə deməkdir?

Qüsl, xüsusi qaydada əzaların hamısına su toxundurmaqla, bədəni yumaq.

***

---

[15] "əl-Maidə" surəsi, 6.

77-ci sual: Qüslü vacib edən amillər hansılardır?

Qüslü vacib edən amillər bunlardır:

1. Təkanla, ləzzət alaraq məni (sperma) ifraz etmək;

2. Cinsi əlaqəyə girmək, hətta məni ifraz olunmasa belə;

3. Heyz (aybaşı) və ya nifas qanının ifraz olması;

***

78-ci sual: Qüsl pozulduqdan sonra qüsl almağın vacib olmasına dəlil nədir?

Qüsl almağın vacib olmasına dair dəlil, Uca Allahın bu kəlamıdır:

﴿وَإِن كُنتُمْ جُنُبًا فَٱطَّهَّرُوا۟﴾

"Əgər cunub olmusunuzsa, qüsl edin."[16]

***

79-cu sual: Dəstəmazın və qüslün nə kimi gözəllikləri var?

Dəstəmazın və qüslün gözəllikləri çoxdur, əsasları bunlardır:

1. İslam dini, insanları həm fiziki, həm də mənəvi təmizliyə çağıran əzəmətli bir dindir;

2. Dəstəmaz alınan əzaların günahlardan və qəbahətlərdən təmizlənməsi;

3. Dəstəmaz, bədənin təmiz, sağlam və bir də gümrah olmasını təmin edir;

4. Namaz əsnasında, ən gözəl halda Allahla xəlvəti söhbətə çəkilmək.

***

[16] "əl-Maidə" surəsi, 6.

## Namaz

80-ci sual: Namaz nə deməkdir?

Namaz: xüsusi kəlmələrdən və hərəkətlərdən ibarət, təkbirlə[17] başlanan və təslimlə[18] tamamlanan ibadətdir.

***

81-ci sual: Hər bir müsəlman kişiyə və müsəlman qadına vəcib buyurulan namazlar hansılardır?

Vacib buyurulan namazlar gündəlik beş vaxt qılınan namazlardır. Bunlar:

1. Fəcr (2 rükət);
2. Zöhr (4 rükət);
3. Əsr (4 rükət);
4. Məğrib (3 rükət);
5. İşa (4 rükət).

***

82-ci sual: Beş vaxt namaz qılmağın vacib buyurulmasına dəlil nədir?

Beş vaxt namaz qılmağın vacib buyurulmasına dəlil, Uca Allahın bu kəlamıdır:

﴿حَٰفِظُواْ عَلَى ٱلصَّلَوَٰتِ وَٱلصَّلَوٰةِ ٱلۡوُسۡطَىٰ وَقُومُواْ لِلَّهِ قَٰنِتِينَ﴾

"Namazları, *xüsisilə* orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun."[19]

***

---

[17] Təkbir: yəni, "Allahu Əkbər" demək.

[18] Təslim: yəni, "əs-Səlamu aleykum və rahmətullah" demək.

[19] "əl-Bəqərə" surəsi, 238.

83-cü sual: Namazı tərk etməyin hökmü nədir? Və buna dəlil nədir?

Namazı tərk etmək küfrdür və bu küfr sahibini İslamdan çıxarır.

Buna dəlil, Peyğəmbərin ﷺ bu sözüdür: "Şübhəsiz ki, insanla, şirk və küfr arasında namazı tərk etmək durur."[20]

***

84-cü sual: Namazın neçə şərti var?

Namazın doqquz şərti var:

1. Müsəlman olmaq;
2. Ruhi xəstə olmamaq;
3. Həddi-büluğa çatmaq;
4. Təharətli olmaq (qüsl və ya dəstəmazlı, yaxud bunları əvəz edən təyəmmümlü olmaq);
5. (Bədəni, paltarı və namaz qılınan yeri) nəcasətdən təmizləmək;
6. Övrət yerlərini örtmək;
7. Namazın vaxtının girməsi;
8. Qibləyə tərəf yönəlmək;
9. (Qılınacaq namaz üçün) qəlbdə niyyət etmək.

***

85-ci sual: Namazın neçə rüknü (dayağı) var?

Namazın on dörd rüknü var:

1. İmkan daxilində ayaq üstə qılmaq;
2. Namaza başladıqda təkbir gətirmək;
3. Hər rükətdə "əl-Fatihə" surəsini oxumaq;
4. Rüku etmək;

---

[20] Səhih Muslim, 82.

5. Rükudan qalxıb dikəlmək;
6. Yeddi əza üzərinə səcdə etmək;
7. Səcdədən qalxmaq;
8. İki səcdə arasında oturmaq;
9. Rükünlərin hamısını rahatlıqla (tələsmədən) yerinə yetirmək;
10. Rükünləri ardıcıllıqla yerinə yetirmək;
11. Axırıncı rükətdə təşəhhüdü demək;
12. Axırıncı rükətdə təşəhhüdü demək üçün oturmaq;
13. Peyğəmbərə ﷺ salavat gətirmək;
14. Sağ və sol tərəfə salam verməklə namazı tamamlamaq.

***

86-cı sual: "əl-Fatihə" surəsi nədir?

"əl-Fatihə" surəsi Quranda zikr edilən ən əzəmətli surədir. Onsuz qılınmış namaz səhih sayılmır. Bu, Uca Allahın kəlamıdır:

﴿ بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ ١ ٱلۡحَمۡدُ لِلَّهِ رَبِّ ٱلۡعَٰلَمِينَ ٢ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ ٣ مَٰلِكِ يَوۡمِ ٱلدِّينِ
٤ إِيَّاكَ نَعۡبُدُ وَإِيَّاكَ نَسۡتَعِينُ ٥ ٱهۡدِنَا ٱلصِّرَٰطَ ٱلۡمُسۡتَقِيمَ ٦ صِرَٰطَ ٱلَّذِينَ أَنۡعَمۡتَ عَلَيۡهِمۡ غَيۡرِ
ٱلۡمَغۡضُوبِ عَلَيۡهِمۡ وَلَا ٱلضَّآلِّينَ ٧ ﴾

"Mərhəmətli və Rəhmli Allahın adı ilə! Həmd, aləmlərin Rəbbi Allaha məxsudur – Mərhəmətli və Rəhmliyə, Din gününün Hökmdarına! Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik. Bizi doğru yola yönəlt – nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların *yoluna* yox!"[21]

***

[21] "əl-Fatihə" surəsi, 1-7.

87-ci sual: Namazın neçə vacibi var?

Namazın səkkiz vacibi var:

1. Ehram təkbirindən (namaza başladıqda edilən təkbirdən) başqa edilən bütün təkbirlər;

2. Rükuda "Subhanə Rabbiyəl-Azim"[22] demək;

3. İmamın və bir də namazı tək qılan şəxsin "Səmi Allahu limən həmidəh"[23] deməsi;

4. "Rabbənə və ləkəl həmd"[24] demək;

5. Səcdədə "Subhanə Rabbiyəl-Əla"[25] demək;

6. İki səcdə arasında oturduqda "Rabbiğ-firli"[26] demək;

7. İlk təşəhhüdü oxumaq;

8. İlk təşəhhədü oxumaq üçün oturmaq.

***

88-ci sual: İlk təşəhhüd nədir?

İlk təşəhhüd, namaz qılan kimsənin belə deməsidir:

(( التَّحِيَّاتُ لِلَّهِ، وَالصَّلَوَاتُ وَالطَّيِّبَاتُ، السَّلاَمُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، السَّلاَمُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللَّهِ الصَّالِحِينَ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ ))

Ət-təhiyyətu lilləhi, vəs-səlavatu vət-tayyibat, əs-səlamu aleykə əyyuhən-nəbiyyu və rahmətullahi və bərəkatuhu, əs-səlamu

---

22 Tərcüməsi: Mənim əzəmətli Rəbbim pak və müqəddəsdir.

23 Tərcüməsi: Allah Ona həmd edəni eşitdi.

24 Tərcüməsi: Ey Rəbbimiz, həmd yalnız Sənə məxsusdur.

25 Tərcüməsi: Mənim Uca Rəbbim pak və müqəddəsdir.

26 Tərcüməsi: Ey Rəbbim, məni bağışla.

aleynə və alə ibadillahis-salihin. Əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh.[27]

***

89-cu sual: İlk təşəhhüd nə zaman oxunur?

Namaz qılan adam ilk təşəhhüdü zöhr, əsr, məğrib və işa namazlarında, ikinci rükətdə, ikinci səcdədən sonra qalxıb oturduqda oxuyur.

***

90-cı sual: Son təşəhhüd nədir?

Son təşəhhüd, namaz qılan kimsənin belə deməsidir:

(( التَّحِيَّاتُ لِلَّهِ، وَالصَّلَوَاتُ وَالطَّيِّبَاتُ، السَّلاَمُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، السَّلاَمُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللَّهِ الصَّالِحِينَ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ. اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ كَمَا صَلَّيْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ. اللَّهُمَّ بَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ ))

Ət-təhiyyətu lilləhi, vəs-sələvatu vət-tayyibat, əs-sələmu aleykə əyyuhən-nəbiyyu və rahmətullahi və bərəkatuhu, əs-sələmu aleynə və alə ibadillahis-salihin. Əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh. Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə

---

[27] Tərcüməsi: Salamlar, dualar və gözəl şeylər Allaha məxsusdur. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti sənə yetişsin! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və rəsuludur.

və alə ali İbrahim, innəkə həmidun məcid. Allahummə barik alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə barəktə alə İbrahimə və alə ali İbrahim, innəkə həmidun məcid![28]

***

91-ci sual: Son təşəhhüd nə zaman oxunur?

Namaz qılan adam son təşəhhüdü, axırıncı rükətdə, ikinci səcdədən sonra qalxıb oturduqda oxuyur.

***

92-ci sual: Namazın neçə sünnəsi var?

Namazda olan sünnələr (müstəhəb əməllər) çoxdur. Onlardan bəzisi bunlardır:

1. İstiftah duası (əl-Fatihə surəsindən əvvəl oxunan dua);
2. Qiyamda ikən sağ əli sol əlin üzərinə qoymaq;
3. İlk təkbiri gətirdikdə, rükuya getdikdə, rükudan qalxdıqda və bir də birinci təşəhhüdü oxuduqdan sonra üçüncü rükətə qalxdıqda, əlləri çiyin və ya mərcək[29] bərabərinə qaldırmaq;

---

[28] Tərcüməsi: Salamlar, dualar və gözəl şeylər Allaha məxsusdur. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti sənə yetişsin! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və rəsuludur. Allahım, İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Həqiqətən, Sən tərifəlayiqsən, şan-şöhrətlisən! Allahım, İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Həqiqətən, Sən tərifəlayiqsən, şan-şöhrətlisən!

[29] Mərcək: Qulağın aşağı ətli hissəsi.

4. Rükuda və səcdədə birdən artıq sayda "Subhanə Rabbiyəl-Azim" və "Subhanə Rabbiyəl-Əla" demək;

5. İki səcdə arasında oturduqda birdən artıq sayda "Rabbiğfirli" demək;

6. Rükuda başı bel müstəvisində düz tutmaq;

7. Səcdədə qolları böyürlərə, qarını isə budlara bitişdirməmək;

8. Səcdədə dirsəkləri yerə qoymamaq;

9. İlk təşəhhüddə, iki səcdə arasında və bir də iki rükətli namazların son təşəhhüddündə, sol ayaq üzərində oturmaq və sağ ayağın barmaqlarını qibləyə tərəf yönəltmək. Bu oturuşa "iftiraş" deyilir.

10. Üçrükətli və dördrükətli namazların son təşəhhüdündə, yan üstə yerə oturmaq, sol ayağı sağ ayağın altından yan tərəfə çıxarmaq və sağ ayağın barmaqlarını qibləyə tərəf yönəltmək. Bu oturuşa da "təvərruk" deyilir:

11. Son təşəhhüdün axırında dua oxumaq;

12. Sübh, cümə, bayram və istisqa namazlarında, habelə, məğrib və işa namazlarının ilk iki rükətində oxunacaq surələri uca səslə oxumaq.

13. Zöhr və əsr namazlarında, habelə, məğrib namazının üçüncü, işa namazının da son iki rükətində oxunacaq surələri səssiz oxumaq.

14. "əl-Fatihə" surəsindən başqa oxunan surələr.

***

93-cü sual: Namazın rükünləri, vacibləri və sünnələri arasında olan fərq nədir?

Fərqi ondadır ki, namazın rükünlərindən birini bilərəkdən və ya səhvən buraxmaq namazı batil edir. Vaciblər isə yalnız bilərəkdən tərk edildikdə namazı batil edir. Və əgər səhvən vaciblərdən biri tərk edilərsə, namazın sonunda iki dəfə səhv səcdəsi etmək

məcburiyyətindədir. O ki qaldı namazın sünnələrinə, onları yerinə yetirmək müstəhəbdir (bəyənilən əməllərdir) və onlardan birini tərk etmək nə namazı batil edər, nə də buna görə səhv səcdəsi etmək lazım gələr.

***

94-cü sual: Namazı hansı amillər batil edir?

Namazı batil edən amillər səkkizdir:

1. Şüurlu şəkildə və namazda danışmağın qadağan olduğunu bilərək qəsdən danışmaq. Unudaraq və ya hökmünü bilmədən danışmaq isə namazı batil etmir.
2. Gülmək;
3. Yemək;
4. İçmək;
5. Övrət yerinin açılması;
6. Qiblə istiqamətindən çox yayınmaq;
7. Namaz əsnasında davamlı olaraq artıq hərəkətlər etmək;
8. Dəstəmazın pozulması.

***

95-ci sual: Namazın nə kimi gözəllikləri var?

Namazın gözəllikləri çoxdur, əsasları bunlardır:

1. Namaz qəlbin rahatlıq tapması, köksün genişlənməsi və Allah azzə və cəllə ilə xəlvəti söhbət etmək üçün bir vasitədir;
2. Namaz kiçik günahları və qəbahətləri silib aparır;
3. Namaz müsəlmanı çirkin və yaramaz işlərdən çəkindirir;
4. Namaz müsəlmanı şərdən və bəlalardan qoruyur. Namaz qılan adam Allahın himayəsi və mühafizəsi altında olur.

***

## Zəkat

96-cı sual: Zəkat nə deməkdir?

Zəkat: müəyyən edilmiş maldan, müəyyən olunmuş vaxtda, xüsusi sinif adamlar üçün çıxarılan vacib haqdır.

***

97-ci sual: Zəkat verməyin vacib olmasına dəlil nədir?

Zəkat verməyin vacib olmasına dəlil, Uca Allahın bu kəlamıdır:

﴿وَأَقِيمُواْ ٱلصَّلَوٰةَ وَءَاتُواْ ٱلزَّكَوٰةَ﴾

"Namaz qılın, zəkat verin!"[30]

***

98-ci sual: Hansı mallardan zəkat çıxarmaq vacibdir?

Beş növ maldan zəkat çıxarmaq vacibdir:

1. Ev heyvanları: dəvə, inək və qoyun;
2. Dənli bitkilər və saxlanılması mümkün olan meyvələr;
3. Nağd pul: qızıl, gümüş və bunları əvəz edən kağız əskinazlar;
4. Ticarət malı;
5. Mədəndən çıxarılan qiymətli əşya və tapılan xəzinə;

***

99-cu sual: Zəkat verməyi vacib edən şərtlər hansılardır?

1. Müsəlman olmaq;
2. Azad insan olmaq;
3. Zəkat miqdarına çatan mala tam və sabit şəkildə sahib olmaq;
4. Zəkat veriləcək malın üzərindən bir il keçməlidir.[31]

---

[30] "əl-Bəqərə" surəsi, 43.

[31] Bu şərt yalnız ev heyvanlarına, nağd pula və ticarət malına aiddir. Dənli bitkilərə və saxlanılması mümkün olan meyvələrin (xurma və s.)

100-cü sual: Zəkat kimlərə verilməlidir?

Zəkat, Allahın bu ayəsində zikr edilən, zəkata haqqı çatan səkkiz sinif insana verilir:

﴿إِنَّمَا ٱلصَّدَقَٰتُ لِلْفُقَرَآءِ وَٱلْمَسَٰكِينِ وَٱلْعَٰمِلِينَ عَلَيْهَا وَٱلْمُؤَلَّفَةِ قُلُوبُهُمْ وَفِى ٱلرِّقَابِ وَٱلْغَٰرِمِينَ وَفِى
سَبِيلِ ٱللَّهِ وَٱبْنِ ٱلسَّبِيلِ ۖ فَرِيضَةً مِّنَ ٱللَّهِ ۗ وَٱللَّهُ عَلِيمٌ حَكِيمٌ﴾

“Zəkat Allah tərəfindən vacib buyurularaq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri *İslam dininə* isinişdiriləcək kimsələrə, kölələrin azad edilməsinə, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah *hər şeyi* biləndir, hikmət sahibidir.”[32]

***

101-ci sual: Zəkatın nə kimi gözəllikləri var?

Zəkatın gözəllikləri çoxdur, əsasları bunlardır:

1. Müsəlmanların varlıları ilə kasıbları arasında həmrəylik, isti münasibət və məhəbbət yaradır;

2. Nəfsi təmizə şıxarır, üstəlik, onu tamahkarlıqdan və xəsislikdən uzaq edir;

3. Allahın verdiyi bərəkətə və daha artığına, üstəlik, verilən malın əvəzini almağa nail olmaq.

***

---

zəkatı isə məhsul yığımı zamanı verilməlidir. O ki qaldı mədəndən çıxarılmış qiymətli əşyalara və tapılmış xəzinəyə, onların zəkatı tapıldığı vaxt verilməlidir. Heyvanların qarnındakı balalara və ticarət mallarının gəlirinə gəlincə, bunların zəkatı onların əslinin zəkat vaxtına aid edilir.

[32] “ət-Tovbə” surəsi, 60.

# Oruc

102-ci sual: Oruc nə deməkdir?

Oruc, niyyət edərək dan yeri sökülən vaxtdan gün batanadək, yeməkdən, içməkdən və orucu batil edən digər amillərdən çəkinmək.

***

103-cü sual: Ramazanda oruc tutmağın vacib olmasına dəlil nədir?

Ramazanda oruc tutmağın vacib olmasına dəlil, Uca Allahın bu kəlamıdır:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ كُتِبَ عَلَيۡكُمُ ٱلصِّيَامُ كَمَا كُتِبَ عَلَى ٱلَّذِينَ مِن قَبۡلِكُمۡ لَعَلَّكُمۡ تَتَّقُونَ﴾

“Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə *Allahdan* qorxasınız.”[33]

***

104-cü sual: Oruc tutmağı vacib edən şərtlər hansılardır?

Oruc tutmağı vacib edən şərtlər altıdır:

1. Müsəlman olmaq;
2. Həddi-büluğa çatmaq;
3. Ruhi xəstə olmamaq;
4. Oruc tutmağa qadir olmaq;
5. Səfərdə olmamaq;
6. Qadının heyz və nifasdən təmizlənməsi.

***

[33] “əl-Bəqərə” surəsi, 183.

105-ci sual: Hansı üzürlü səbəblərdən dolayı ramazan ayında orucu buraxmaq olar?

Ramazan ayında orucu buraxmağa rüsxət verəv üzürlü səbəblər dörddür:

1. Oruc tutduqda əziyyət verən xəstəliyin və ya yaşın çox olması;

2. Səfərə çıxmaq;

3. Heyz və ya nifas qanının ifraz olması;

4. Hamilə olmaq və ya körpəyə süd vermək;

***

106-cı sual: Orucu pozan amillər nələrdir?

Orucu pozan amillərin sayı yeddidir, bunlar:

1. Cinsi əlaqəyə girmək;

2. Məni (sperma) ifraz etmək;

3. (Yemək və s.) yemək və ya (su və s.) içmək;

4. Yemək-içməyi əvəz edən qidalandırıcı iynə və s. kimi maddələr;

5. Hicama yoluyla qan aldırmaq;

6. Bilərəkdən qusmaq, yəni, mədədəki yeməyi və ya suyu bayıra çıxarmaq;

7. Heyz və ya nifas qanının ifraz olması.

***

107-ci sual: Orucu pozan amillər hansı şərtlərə əsasən orucu pozur?

Bu amillər yalnız üç şərtlə orucu pozur:

1. Orucunu pozan adam həm bu amillərin hökmünü bilməli, həm də vaxtdan xəbəri olmalıdır;[34]

2. Şüurlu şəkildə etmək;[35]

3. Öz ixtiyarı ilə orucu pozmaq;

***

108-ci sual: Orucun nə kimi gözəllikləri var?

Orucun gözəllikləri çoxdur, əsasları bunlardır:

1. Nəfsi, səbirli və mülayim olmaq kimi gözəl əxlaqi xislətlərə öyrəşdirmək;

2. Allahın Öz qullarına bəxş etdiyi yemək-içmək kimi nemətləri xatırlamaq;

3. Kasıbların halına acımaq və onlara yaxşılıq etmək üçün onların ehtiyacları barədə düşünmək;

4. Bədənin sağlamlığını və salamatlığını qorumaq.

***

[34] Məsələn, adam saatın geri qalması üzündən orucun vaxtının başlamadığını güman edib yemək yemişdirsə, bu onun orucunu pozmur.

[35] Yəni unudub yemək yemək, su içmək və s. orucu pozmur.

# Həcc

109-cu sual: Həcc nə deməkdir?

Həcc: müəyyən zaman əsnasında, müəyyən əməlləri yerinə yetirmək məqsədilə Məkkəyə səfər etmək.

***

110-cu sual: Həcc ziyarətini yerinə yetirməyin vacib olmasına dəlil nədir?

Həcc ziyarətini yerinə yetirməyin vacib olmasına dəlil, Uca Allahın bu kəlamıdır:

﴿وَلِلَّهِ عَلَى ٱلنَّاسِ حِجُّ ٱلْبَيْتِ مَنِ ٱسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا﴾

"Yoluna gücü çatan hər kəsin *müqəddəs* Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır."[36]

***

111-ci sual: Həccin neçə şərti var?

Həccin beş şərti var:

1. Müsəlman olmaq;
2. Ruhi xəstə olmamaq;
3. Həddi-büluğa çatmaq;
4. Azad insan olmaq;
5. Ziyarəti yerinə yetirməyə qadir olmaq;

***

---

[36] "Ali-İmran" surəsi, 97.

112-ci sual: Həccin neçə növü var?

Həccin üç növü var:

1. Təməttu: həcc aylarında[37] əvvəlcə ümrə ziyarətini niyyət edib onu yerinə yetirməli, sonra ihramdan çıxmalı və nəhayət zulhiccənin səkkizi həcc ziyarətini niyyət edib ihrama[38] girməlidir;

2. Qiran: ümrə və həcc ziyarətlərini yerinə yetirməyə eyni zamanda niyyət edib ziyarətə başlamaq;

3. İfrad: yalnız həcc ziyarətini yerinə yetirməyə niyyət edib ziyarətə başlamaq.

***

113-cü sual: Həccin neçə rüknü var?

Həccin dörd rüknü var:

1. İhrama girmək;

2. Zulhiccənin 9-u Ərəfatda qalmaq;

3. İfadə (həcc) təvafını etmək;

4. Səfa və Mərvə dağları arasında səy etmək.

***

114-cü sual: Həccin neçə vacibi var?

Həccin yeddi vacibi var:

1. Ziyarət etmək üçün miqatdan[39] ihrama girmək;

2. Gündüz vaxtı Ərafata gələn kimsələrin gecəyə qədər orada qalması;

---

[37] Şəvval, zulqidə ayları və zulhiccə ayının ilk on günü.

[38] İhrama girmək – həcc və ya ümrə ziyarətini niyyət etmək və ziyarət əsnasında qadağan edilmiş əməllərdən çəkinmək.

[39] Həcc və ya ümrə ziyarətini yerinə yetirmək üçün niyyət edilən yerlər: Mədinə əhli üçün zul-Huleyfə, Şam əhli üçün Cuhfə, Nəcd əhli üçün Qarnəl-mənazil və Yəmən əhli üçün Yələmləm.

3. Qurban bayramının gecəsi Müzdəlifə vadisində gecələmək;

4. Təşriq[40] günlərində Minada gecələmək;

5. Sütunlara[41] ardıcıl şəkildə daş atmaq.

6. Saçları tam qırxmaq və ya qısaltmaq;

7. Vida təvafını yerinə yetirmək. Yalnız heyz və nifas halında olan qadınlar müstəsnadır.

***

115-ci sual: Həccin neçə sünnəsi var?

Həccin sünnələri çoxdur. Onlardan bəzisi bunlardır:

1. İhrama girməzdən əvvəl çimmək və ətirlənmək;

2. İfrad və Qiran niyyəti ilə ziyarət edən kimsələrin Məkkəyə daxil olduqları gün təvaf etməsi;

3. İlk təvafı yerinə yetirdikdə, onun üç dövrəsini yüyürərək yerinə yetirmək;

4. İlk təvafı yerinə yetirdikdə, sağ çiyini açıq saxlamaq;

5. Təvafdan sonra (İbrahim məqamında) iki rükət namaz qılmaq;

6. Ərəfa gecəsi Minada gecələmək;

7. İhrama girdikdən ta böyük sütuna[42] daş atanadək təlbiyə gətirmək;

8. Ərəfatda zöhr və əsr namazlarını, zöhrün vaxtında cəm edib qılmaq, habelə, müzdəlifədə də, məğrib və işa namazlarını cəm edib qılmaq.

***

---

[40] Zulhiccə ayının 11-ci, 12-ci və 13-cü günlərinə təşriq günləri deyilir.

[41] Burada söhbət şeytanın rəmzi olaraq tikilmiş üç sütundan – kiçik, orta və böyük sütunlardan gedir. Bu sütunlara ərəbcə “cəmərat” deyilir.

[42] Burada şeytana daş atılan sütunlardan ən böyüyü qəsd edilir. Buna da ərəbcə “cəmərətul-əqəbə” deyilir.

116-cı sual: Həccin rükünləri, vacibləri və sünnələri arasında olan fərq nədir?

Fərqi ondadır ki, həccin rükünlərindən birini buraxmaq həcci batil edir. Vacibi tərk etdikdə isə həcc edən adama kəffarə olaraq əlavə qurban kəsmək vacib olur. O ki qaldı həccin sünnələrinə, onları yerinə yetirmək müstəhəbdir və onlardan birini tərk edənin kəffarə ödəməsinə lüzum yoxdur.

***

117-ci sual: Həcc və ya ümrə ziyarətini yerinə yetirmək üçün niyyət etmiş kimsəyə qadağan olunan əməllər hansılardır?

Həcc və ya ümrə ziyarətini yerinə yetirmək üçün niyyət etmiş kimsəyə qadağan olunan əməllər üç qismə bölünür:

Birinci qism, kişilərə və qadınlara qadağan olunan əməllərdir. Bunların da sayı yeddir:

1. Saçları[43] qırxmaq və ya qısaltmaq;
2. Dırnaq kəsmək;
3. Ətirlənmək;
4. Nikah bağlamaq;
5. Şəhvət hissini oyatmaq məqsədilə qadına toxunmaq;
6. Cinsi əlaqəyə girmək;
7. Heyvan ovlamaq;

İkinci qism, yalnız kişilərə qadağan olunan əməllərdir. Buna da cəmi iki qadağa aiddir:

1. Başı örtmək;
2. Tikişli geyim geymək;

---

[43] Burada "saç" deyildikdə, bədənin istənilən yerindən tük kəsməyin qadağan edilməsi nəzərdə tutulur.

Üçüncü qism, yalnız qadınlara qadağan olunan əməllərdir. Buna da, iki qadağa aiddir:

1. Niqab və ya yaşmaq geymək;

2. Əlcək taxmaq;

***

118-ci sual: Həccin nə kimi gözəllikləri var?

Həccin gözəllikləri çoxdur, əsasları bunlardır:

1. Dünyanın hər yerində olan müsəlmanların bir yerə toplaşması, aralarında dostluq münasibətinin və məhəbbətin yaranması və onların bir-biriləri ilə tanış olması;

2. Müsəlmanların birliyinin nümayiş etdirilməsi; belə ki, onlar eyni yerdə, eyni vaxtda və eyni libasda bir ümmət olduqlarını hamıya göstərirlər. Belə olduqları halda onların arasındakı varlı ilə kasıb, ərəblə əcəm və zənci ilə ağ adam arasında fərq qoyulmur.

3. Axirət gününü və həmin gün insanların Allahın hüzurunda duracağını yada salmaq;

***

## Əhli-sünnə vəl-cəmaənin əqidəsinə aid məsələlər

119-cu sual: Müsəlman firqələrindən hansı biri Cəhənnəm odundan xilas olacaq?

Cəhənnəm odundan xilas olacaq firqə: əhli-sünnə vəl-cəmaədir.

***

120-ci sual: Əhli-sünnə vəl-cəmaə kimlərə deyilir?

Əhli-sünnə vəl-cəmaə o kəslərdir ki, onlar həm aşkarda, həm də gizlində, Peyğəmbərin ﷺ sünnəsinə, – istər sözdə, istər əməldə, istərsə də etiqadda olsun, – riayət edirlər.

Onların "əhli-sünnə" adlandırılmalarının səbəblərindən biri də budur ki, onlar səhih İslam dinindən möhkəm tutub düz yolla – Peyğəmbərin ﷺ göstərdiyi və əməlisaleh sələflərin getdiyi yolla gedən kəslərdir. Elə buna görə də onlar "sələfi" adlanırlar.

***

121-ci sual: Onların "əhli-sünnə vəl-cəmaə" adlanmasının səbəbi nədir?

Onlar Sünnədən möhkəm tutduqlarına görə "əhli-sünnə", bu yolda bir camaat olduqlarına görə də "vəl-cəmaə" adlandırılmışlar.

***

122-ci sual: Onların "sələfi" adlanmasının səbəbi nədir?

Onlar Quran və Sünnəyə tabe olan əməlisaleh sələflərin yolunu getdiklərinə, insanları Quran və Sünnəyə dəvət etdiklərinə və buna əməl etdiklərinə görə "sələfi" adlandırılmışlar. Məhz bunun sayəsində onlar Peyğəmbərin ﷺ yolunu gedən bir camaat olmuşlar.

***

123-cü sual: Əhli-sünnə vəl-cəmaənin Cəhənnəm odundan xilas olacaq firqə olduğuna dəlil nədir?

Əhli-sünnə vəl-cəmaənin Cəhənnəm odundan xilas olacaq firqə olduğuna dəlil, Peyğəmbərin ﷺ bu sözüdür: "Yəhudilər yetmiş bir firqəyə, nəsranilər də, yetmiş iki firqəyə bölünmüşlər. Bu ümmət isə yetmiş üç firqəyə bölünəcək. O firqələrin birindən başqa hamısı Cəhənnəmlik olacaq." Səhabə: "Kimlərdir onlar, ya Rəsulullah?"– deyə soruşduqda, Peyğəmbər ﷺ demişdir: "Bu gün mənim və səhabələrimin getdiyi yolla gedəcək kimsələr", bir başqa ləfzdə: "bir camaat olan kimsələr."[44]

***

124-cü sual: Allahın ucalıqda olması və (Ərşin üzərində) istiva etməsi xüsusunda əhli-sünnə vəl-cəmaənin əqidəsi nədir?

Allahın ucalıqda olması və (Ərşin üzərində) istiva etməsi xüsusunda əhli-sünnə vəl-cəmaənin əqidəsi, peyğəmbərlərin – aleyhimussalətu vəssəlam – və səhabələrin – radiyallahu anhum – hamısının qəbul etdiyi əqidədir. Onlar Allah subhanəhu və təalənin səmada – məxluqatın hamısından yüksəkdə olduğuna, Öz cəlalına və əzəmətinə layiq şəkildə, həm də, Öz vəsfində yaratdıqlarından heç birinə bənzəmədiyi halda, Ərşinin üzərində yüksəldiyinə etiqad edirlər.

***

125-ci sual: Allahın yüksəkdə olmasını isbat etmək üçün Qurani Kərimdən nə dəlil göstərmək olar?

---

[44] "Sünən ət-Tirmizi" 2641; "Sünən Əbu Davud", 4596; "Sünən İbn Macə", 3992; şeyx Albani "Səhih Sünən İbn Macə" əsərində (2/364) bu hədisin səhih olduğunu demişdir.

Allahın yüksəkdə olmasını isbat etmək üçün dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ءَأَمِنتُم مَّن فِى ٱلسَّمَآءِ أَن يَخْسِفَ بِكُمُ ٱلْأَرْضَ فَإِذَا هِىَ تَمُورُ﴾

"Göydə olan *Allahın* sizi yerə batırmayacağına əminsinizmi? O zaman yer hərəkətə gəlib titrəyəcək."[45]

Həmçinin, Onun bu kəlamı:

﴿سَبِّحِ ٱسْمَ رَبِّكَ ٱلْأَعْلَى﴾

"Ən Uca Rəbbinin adına tariflər de!"[46]

***

126-cı sual: Allahın yüksəkdə olmasını isbat etmək üçün sünnədən nə dəlil göstərmək olar?

Allahın yüksəkdə olmasını isbat etməyə sünnədən dəlil, cariyə hədisidir. O vaxt ki, Peyğəmbər ﷺ ondan: "Allah haradadır?"– deyə soruşmuş, o da: "Göydədir"– deyə cavab vermiş, sonra Peyğəmbər ﷺ ondan: "Mən kiməm?"– deyə soruşmuş, o da: "Sən, Allahın rəsulusan"– deyə cavab vermişdir. Onda Peyğəmbər ﷺ onun ağasına belə buyurmuşdur: "Onu azad et, çünki o, mömindir."[47]

***

127-ci sual: Allahın Ərşin üzərində istiva etməsinə dəlil nədir?

Allahın Ərşin üzərində istiva etməsinə dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ٱلرَّحْمَٰنُ عَلَى ٱلْعَرْشِ ٱسْتَوَىٰ﴾

---

45 "əl-Mulk" surəsi, 16.

46 "əl-Əla" surəsi, 1.

47 "Səhih Muslim", 537.

"Mərhəmətli Allah Ərşə ucaldı."[48] Bundan başqa Uca Allahın:

﴿ ثُمَّ ٱسۡتَوَىٰ عَلَى ٱلۡعَرۡشِ ﴾

"Sonra Mərhəmətli *Allah* Ərşə ucaldı" kəlamı Quranda altı ayədə zikr edilmişdir. Bunlar: "əl-Əraf" surəsi, 54; "Yunus" surəsi, 3; "ər-Rəd" surəsi, 2; "əl-Furqan" surəsi, 59; "əs-Səcdə" surəsi, 4 və bir də "əl-Hədid" surəsi, 4.

***

128-ci sual: İstiva etmək nə deməkdir?

İstiva etmək: ucalmaq və yüksəlmək, yəni Ərşin üzərində ucalmaq və yüksəlmək. Ərəb dilində istiva kəlməsinin mənası bəllidir, lakin bu istivanın necəliyi məchuldur. Necə ki, imam Malik – rahiməhullah – demişdir: "İstiva məlumdur, necəliyi məchuldur, buna iman gətirmək vacibdir, o haqda soruşmaq isə bidətdir." Yəni onun necəliyi haqda soruşmaq olmaz. Bu da, Allahın sifətlərinin hamısına şamil edilən ümumi qaydadır. Yəni o sifətlərin hamısının mənası məlumdur, necəliyi isə məchuldur.

***

129-cu sual: Qurani Kərim xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir?

Əhli-sünnə vəl-cəmaə etiqad edir ki, Quran hərfləri və mənası ilə bərabər Uca Allahın kəlamıdır, göydən nazil edilmiş, yaradılmamış, Allahdan gəlmiş və Ona da qayıdacaq, Allah Quranı həqiqi mənada danışmış, onu Cəbrailə həvalə etmiş, o da onu Muhəmmədin ﷺ qəlbinə nazil etmişdir.

***

---

[48] "Ta ha" surəsi, 5.

130-cu sual: Qurani Kərimin Uca Allahın kəlamı olduğuna dəlil nədir?

Dəlil, Uca Allahın bu kəlamıdır:

﴿وَإِنْ أَحَدٌ مِّنَ الْمُشْرِكِينَ اسْتَجَارَكَ فَأَجِرْهُ حَتَّىٰ يَسْمَعَ كَلَامَ اللَّهِ﴾

“Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın kəlamını eşitsin.”[49] Bu ayədə “Allahın kəlamı” deyildikdə, Quran qəsd edilir.

***

131-ci Qurani Kərimin Allahdan nazil edildiyinə və məxluq olmadığına dəlil nədir?

Quranın nazil edildiyinə dəlil, Uca Allahın bu kəlamıdır:

﴿تَبَارَكَ الَّذِي نَزَّلَ الْفُرْقَانَ عَلَىٰ عَبْدِهِ﴾

“Öz quluna Furqanı nazil edən *Allah ən Əzəmətli,* xeyiri və bərəkəti bol olandır!”[50]

Onun məxluq olmamasına dəlil, Uca Allahın bu kəlamıdır:

﴿أَلَا لَهُ الْخَلْقُ وَالْأَمْرُ﴾

“Əslində, yaratmaq da, əmr etmək də *Allaha* məxsusdur.”[51] Diqqət edin, Uca Allah bu ayədə yaratmağın ayrı, əmr etməyin ayrı olduğunu qeyd edir. Halbuki, Quran Allahın əmrindəndir. Buna da dəlil, Uca Allahın bu kəlamıdır:

﴿وَكَذَٰلِكَ أَوْحَيْنَا إِلَيْكَ رُوحًا مِّنْ أَمْرِنَا﴾

---

[49] “ət-Tovbə” surəsi, 6.

[50] “əl-Furqan” surəsi, 1.

[51] “əl-Əraf” surəsi, 54.

"Biz sənə Öz əmrimizdən olan Quranı vəhy etdik."[1]

Belə ki, Allahın kəlamı Onun sifətlərindən biridir, Uca Allahın sifəti isə məxluq deyil.

***

132-ci sual: Allahı görmək xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir?

Əhli-sünnə vəl-cəmaə etiqad edir ki, möminlər Uca Allahı Qiyamət günü, Cənnətdə öz gözləri ilə əyani olaraq görəcəklər.

***

133-cü sual: Möminlərin axirətdə Allahı görəcəklərinə dəlil nədir?

Möminlərin axirətdə Allahı görəcəklərinə dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ وُجُوهٌ يَوْمَئِذٍ نَّاضِرَةٌ ﴿٢٢﴾ إِلَىٰ رَبِّهَا نَاظِرَةٌ ﴿٢٣﴾ ﴾

"O gün *bir çox* üzlər parlayacaq və öz Rəbbinə baxacaq."[2]

Həmçinin, dəlil, Onun bu kəlamıdır:

﴿ لِّلَّذِينَ أَحْسَنُوا الْحُسْنَىٰ وَزِيَادَةٌ ﴾

"Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da üstünü vardır."[3] Səhih hədisdə rəvayət edilmişdir ki, bu ayədə zikr edilən "ən "ən yaxşı", Cənnət, "bundan da üstünü" isə Allahın üzünə baxmaqdır.[4]

---

[1] "əş-Şura" surəsi, 52.

[2] "əl-Qiyamə" surəsi, 22-23.

[3] "Yunus" surəsi, 26.

[4] Bax: "Səhih Muslim", 181.

***

134-cü sual: İman xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir?

Əhli-sünnə vəl-cəmaə etiqad edir ki, iman dil ilə tələffüz etmək, qəlb ilə etiqad etmək və bədən əzaları ilə əməl etməkdir, üstəlik, itaət etməklə artır, asilik etməklə azalır.

***

135-ci sual: Sözün və əməlin imandan olmasına dəlil nədir?

Sözün və əməlin imandan olmasına dəlil, Peyğəmbərin ﷺ bu sözüdür: "İman yetmiş və bir neçə şöbədən ibarətdir. Bunun ən üstünü "lə ilahə illəllah" sözü, ən aşağı dərəcəsi isə əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqdır. Həya da imanın şöbələrindəndir."[1] Burada Peyğəmbər ﷺ sözün və əməlin imandan olmasını vurğulayır.

***

136-cı sual: İmanın artmasına və azalmasına dəlil nədir?

İmanın artmasına və azalmasına dəlil, Uca Allahın bu kəlamıdır:

﴿وَيَزۡدَادَ ٱلَّذِينَ ءَامَنُوٓاْ إِيمَٰنٗا﴾

"...iman gətirənlərin imanı artsın,"[2] İmanın artmasına dəlil, əks anlamda, onun azalmasına da dəlalət edir.

---

[1] "Səhih əl-Buxari", 9; "Səhih Muslim", 35. Bu ləfz Muslimin nəql etdiyi hədisdədir.

[2] "əl-Muddəssir" surəsi, 31.

***

137-ci sual: Bir camaat olmağın vacib olması xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir? Və buna dəlil nədir?

Əhli-sünnə vəl-cəmaə, müsəlman camaatı və onun imamı ilə birgə olmağın vacib olduğunu etiqad edir. Buna da dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ وَٱعۡتَصِمُواْ بِحَبۡلِ ٱللَّهِ جَمِيعٗا وَلَا تَفَرَّقُواْ ﴾

"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın!"[1]

***

138-ci sual: Rəhbərlərə itaət etməyin vacib olması xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir? Və buna dəlil nədir?

Əhli-sünnə vəl-cəmaə etiqad edir ki, şəriətə müvafiq işlərdə müsəlman rəhbərlərinə itaət etmək vacibdir, hətta onlar günahkar olsalar belə. Buna dəlil, Peyğəmbərin ﷺ bu sözüdür: "Hər bir müsəlmana, sevdiyi və sevmədiyi işlərdə *rəhbərə* itaət etmək vacibdir. Yalnız asilik etmək əmrinə itaət etməsi istisnadır. Asilik etmək əmr olunduqda isə, nə eşitmək, nə də itaət etmək olar."[2]

***

139-cu sual: Böyük günah edən kimsənin hökmü xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir? Və buna dəlil nədir?

Əhli-sünnə vəl-cəmaə etiqad edir ki, böyük günah edən kimsə kafir sayılmır, beləsi əbədi Cəhənnəm əhlindən deyil və onun ba-

---

1 "Ali-İmran" surəsi, 103.

2 "Səhih əl-Buxari", 7144; "Səhih Muslim", 1839.

rədə hökm vermək Allaha aiddir. Allah istəsə ona layiq olan cəzanı verər, istəsə onu bağışlayar. Buna dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ إِنَّ ٱللَّهَ لَا يَغۡفِرُ أَن يُشۡرَكَ بِهِۦ وَيَغۡفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَن يَشَآءُ ﴾

“Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar.”[1]

***

140-cı sual: Müsəlmanı kafir saymağın hökmü nədir? Və buna dəlil nədir?

Müsəlmanı kafir saymaq haramdır. Buna dəlil, Peyğəmbərin ﷺ bu sözüdür: “Kim bir möminin kafir olduğunu deyərsə, onu öldürmüş hesab edilər.”[2]

***

141-ci sual: Səhabələr xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir?

Əhli-sünnə vəl-cəmaənin səhabələr xüsusunda etiqadı belədir ki, onlar qəlblərində Rəsulullahın ﷺ səhabələrinə kin bəsləmir, onlara nifrət etmir, onlarla ədavət aparmır, dilləri ilə də onlara tənə vurmur və onları söymürlər. Onlar səhabələri sevir, Allahın onlardan razı qaldığına etiqad edir, yaxşı işlər görməkdə, (habelə, pis işlərdən çəkinməkdə) onların yolunu tutub gedir və Allahın onları zikr etdiyi ayə ilə onlara dua edib deyirlər:

---

[1] “ən-Nisa” surəsi, 48.

[2] “Səhih əl-Buxari”, 6105.

﴿رَبَّنَا ٱغْفِرْ لَنَا وَلِإِخْوَٰنِنَا ٱلَّذِينَ سَبَقُونَا بِٱلْإِيمَٰنِ وَلَا تَجْعَلْ فِى قُلُوبِنَا غِلًّا لِّلَّذِينَ ءَامَنُوا۟﴾

"Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə."[1]

***

142-ci sual: Rəsulullahın ﷺ əhli-beyti xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir?

Əhli-sünnə vəl-cəmaənin Rəsulullahın ﷺ əhli-beyti xüsusunda etiqadı belədir ki, onlar Rəsulullahın ﷺ əhli-beytini iki xüsusiyyətə görə sevirlər: onların imanına və bir də Rəsulullaha ﷺ qohum olduqlarına görə. Lakin, əhli-sünnə vəl-cəmaə Allahı qoyub onlara ibadət etməklə onları şişirtmir və onların günahsız olduğunu etiqad etmirlər.

***

143-cü sual: əl-vəla vəl-bəra xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir?

Əhli-sünnə vəl-cəmaə etiqad edir ki, əl-vəla vəl-bəra imanın və "lə ilahə illəllah" – şəhadət kəlməsinin tələblərindəndir.

**əl-vəla:** möminləri sevmək və onlarla dostluq etmək deməkdir.

**əl-bəra:** kafirlərə nifrət etmək, onlara ədavət bəsləmək, onlardan və onların dinindən uzaq durmaq, onlara məxsus (adət-ənənələrdə, geyimdə və s.) onlara oxşamamaq deməkdir. Lakin bütün bunlarla yanaşı onlara zülm etmək, onlara qarşı həddi aşmaq və onlarla əlaqəni kəsmək olmaz.

---

[1] "əl-Həşr" surəsi, 10.

***

144-cü sual: İsa ﷺ xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir?

Əhli-sünnə vəl-cəmaə etiqad edir ki, İsa ﷺ Allahın qulu və Onun rəsuludur, elə bir qul ki, ona ibadət edilməməli və elə bir rəsul ki, təkzib edilməməlidir. Əhli-sünnə vəl-cəmaə, həmçinin, etiqad edir ki, o, Adəm övladından olan, atasız – təkcə anadan dünyaya gəlmiş bir bəşərdir.

***

145-ci sual: Yəhudilik və nəsranilik kimi digər dinlər xüsusunda əhli-sünnə vəl-cəmaənin etiqadı nədir? Və buna dəlil nədir?

Əhli-sünnə vəl-cəmaə etiqad edir ki, İslam dini özündən əvvəlki dinlərin hamısını ləğv etmişdir, üstəlik, Allah Muhəmmədi ﷺ peyğəmbər göndərdikdən sonra heç kəsdən İslam dinindən başqa bir din qəbul etmir və (hazırda) İslamdan başqa mövcud olan dinlərin hamısı batildir.

***

146-cı sual: Qurani Kərimdə, İslam dininin haqq din olmasına, habelə, İslamdan başqa mövcud olan dinlərin hamısının batil olmasına dəlil nədir?

İslam dininin haqq din olmasına, İslamdan başqa mövcud olan dinlərin isə batil olmasına dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ وَمَن يَبْتَغِ غَيْرَ ٱلْإِسْلَٰمِ دِينًا فَلَن يُقْبَلَ مِنْهُ وَهُوَ فِى ٱلْءَاخِرَةِ مِنَ ٱلْخَٰسِرِينَ ﴾

"Kim İslamdan başqa bir din arayarsa, *bilsin ki, o din* ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."[1]

---

[1] "Ali-İmran" surəsi, 85.

***

147-ci sual: Allahın rəsulu Muhəmmədin ﷺ gətirdiyi İslam dininə iman gətirməyin vacib olmasına sünnədən dəlil nədir?

Allahın rəsulu Muhəmmədin ﷺ gətirdiyi İslam dininə iman gətirməyin vacib olmasına sünnədən dəlil, Peyğəmbərin ﷺ bu sözüdür: "Muhəmmədin canı əlində olan Allaha and olsun ki, bu ümmətdən hər hansı bir yəhudi və ya xristian mənim barəmdə eşidib, sonra da mənimlə göndəriləne iman gətirmədiyi halda ölərsə, mütləq Cəhənnəm əhlindən olar."[1]

***

148-ci sual: Quran və sünnədə zikr edilmiş dəlillər xüsusunda əhli-sünnə vəl-cəmaənin mövqeyi nədir? Və buna dəlil nədir?

Quran və sünnədə zikr edilmiş dəlillər xüsusunda əhli-sünnə vəl-cəmaənin mövqeyi belədir ki, Quran və səhih sünnədəki dəlillərə təslim olmaq, onlara tabe olmaq, üstəlik, rəyə və ya ağıla üstünlük verərək onları inkar etməmək. Buna dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ فَلَا وَرَبِّكَ لَا يُؤْمِنُونَ حَتَّىٰ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لَا يَجِدُوا فِي أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُوا تَسْلِيمًا ﴾

"Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə içlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar."[2]

---

[1] "Səhih Muslim", 153.

[2] "ən-Nisa" surəsi, 65.

***

149-cu sual: Allah yolunda cihad etmək xüsusunda əhli-sünnə vəl-cəmaənin mövqeyi nədir?

Əhli-sünnə vəl-cəmaə etiqad edir ki, cihad İslamın zirvəsidir və Allahın kəlməsi uca olsun deyə onu həyata keçirmək lazımdır. Lakin bunu yerinə yetirdikdə müəyyən şərtlərin olması vacibdir. Bu şərtlərin ən əhəmiyyətlisi güc və qüdrətin olması, üstəlik, bunu müsəlmanların rəhbərinin bayrağı altında həyata keçirilməsidir.

***

150-ci sual: Terrorçu dəstələrin cihad adı qoyaraq etdikləri əməllər xüsusunda əhli-sünnə vəl-cəmaənin mövqeyi nədir?

Əhli-sünnə vəl-cəmaə o terrorçuların etdikləri əməllərdən uzaqdır, hətta bu əməli cihad adlandırsalar belə. Çünki onlar xəvariclərin yolundadılar. Həm də ona görə ki, onların etdiyi bu yaramaz əməl, İslamın adına ləkə gətirir, əmin-amanlıqda olan insanları qorxuya salır, müharibə ilə əlaqəsi olmayan adamların qətlinə səbəb olur və İslam ölkələrində fitnə-fəsada yol açır və onlara zərər yetirir.

Allah müvəffəq eləsin və Peyğəmbərimiz Muhəmmədə Allahın salavatı və salamı olsun!

# Mündəricat

Səudiyyə Ərəbistanı Krallığının ali müftisinin müqəddiməsi ....... 2
Möhtərəm şeyx əllamə d. Saleh ibn Fövzan əl-Fövzanın müqəddiməsi ........ 4
Müəllifin müqəddiməsi ........ 6
Üç əsas ........ 7
İslamın rüknləri və şəhadət kəlməsinin mənası ........ 9
İmanın rüknləri və onun faydaları ........ 12
Ehsan və onun faydaları ........ 17
Tövhid və onun üstünlükləri ........ 18
Riddə ........ 21
Şirk ........ 24
Münafiqlik ........ 27
Şəriətin buyurduğu ibadətlər və qadağan etdiyi bidətlər ........ 29
Dəstəmaz və qüsl ........ 33
Namaz ........ 36
Zəkat ........ 44
Oruc ........ 46
Həcc ........ 49
Əhli-sünnə vəl-cəmaənin əqidəsinə aid məsələlər ........ 54
Mündəricat ........ 67